# Ailə - cəmiyyətin kiçik modeli

## Hər birimiz cəmiyyət adlı evin divar daşıyıq

**Ailə insanın özünü ən rahat və təhlükəsiz hiss etdiyi yerdir. Məhz bu yerdən formalaşaraq cəmiyyət içərisinə qatılan fərd ona ailədən aldığı töhfələri verir. Mütəxəssislər ailə institutunun möhkəmliyi barədə mülahizələrini bölüşərkən bu qənaətə gəlirlər ki, müasir Azərbaycan ailəsi öz tarixi köklərinə söykənir. Azərbaycan ailəsinin özünəməxsus dəyərləri var. Böyüyə hörmət ənənəsi, ailə sütununun möhkəmliyi məsələsi daim ailənin başçısı və xanımı tərəfindən önə çəkilir. Azərbaycan ailəsində ata nüfuzu lap qədimdən xüsusi yer tutub.**

### AZƏRBAYCANIN AİLƏ DƏYƏRLƏRİNƏ MÜNASİBƏT

**Millət vəkili Qənirə Paşayeva** Azərbaycan ailəsində başlıca xüsusiyyətlər olan hörmət və saygını yüksək dəyərləndirdi: "Əgər ailədə qarşılıqlı saygı və hörmət yoxdursa, o zaman hər hansı ailə institutunun möhkəmliyindən danışa bilmərik". Əlbəttə, ailədə kişinin öz fiziki gücünə və ya iqtisadi imkanına güvənərək özünü lider hesab etməsi həmin ailənin gələcəyini şübhə altına alır. Bu zaman ailə başçısının xanımına qarşı təzyiqləri, hətta fiziki güc tətbiq etməsi istisna deyil. Bu cür təzyiqlər olmasa belə, mənəvi basqı, psixoloji basqı, iqtisadi təzyiq də ailə daxilində inamsızlığa yol açır. Millət vəkilinin sözlərinə görə, ailədə bir-birinə hörmət qarşılıqlı olmalıdır: "Eyni zamanda, ailənin xanımı da ailə başçısına qarşı münasibətdə saygı, hörmət dəyərlərini qoruya bilmirsə, həmin ailə sağlam, xoşbəxt ailə olmayacaq. Ailədə səmimiyyət, bir-birinə qarşı saygı və hörmət xüsusi əhəmiyyət daşıyır". Məhz belə ailələrdə böyüyən uşaqlar mənən sağlam olur. Mənəvi və psixoloji travmalara məruz qalmayan uşaqlar cəmiyyət üçün də sağlam fərdlərdir. Lakin övladlar ailədə kişinin xanımına və ya qadının ailə başçısına təzyiqini, hörmətsizliyini görərək böyüyürlərsə, bu, gələcəkdə cəmiyyət üçün də bir problemə çevriləcək. Q.Paşayeva bildirdi ki, ailə dəyərləri, ənənələri deyəndə ilk növbədə "Dədə Qorqud" dastanını xatırlamalı olursan. Bu dastanda bir-birinə hörmət, qadının ərinə, kişinin isə xanımına verdiyi dəyər o qədər qiymətli və yüksəkdir ki, Azərbaycan ailəsi üçün bundan dəyərli bir şey ola bilməz. Süni surətdə formalaşmış yanlış stereotiplər əsasında ailə dəyərlərini qorumaq mümkün deyil. Azərbaycan ailəsində ağsaqqala, ağbirçəyə münasibət həmişə yüksək pillədə olub.

Q.Paşayeva onu da qeyd etdi ki, uşaqlara yanaşma tərzi də mühüm şərtdir: "Uşaqlarla bağlı məsələlərə yanaşma da dəyişməlidir. Onlara qarşı tətbiq edilən fiziki güc tərbiyə üsulu deyil. Onlarla danışmaq, söhbət etmək, onlarla kitab oxumaq, onlarla zaman keçirmək, fikirlərini bölüşmək, dinləyərək öz tövsiyələrini vermək çox vacibdir. Uşağın qorxu üzərində tərbiyə edilməsi fikri yanlışdır, bu öz müsbət effektini verə bilməz".

Təəssüflər olsun ki, bəzi ailələrdə övladların mənəvi tərbiyəsi baxımından zərərli hallar yaşanır. Belə ki, bəzi ailələrdə müasirlik deyə yanlış tərbiyə metodları tətbiq edilir. Azərbaycan ailə institutunun möhkəmləndirilməsi kimi görülən işlərin biri də təbliğat vasitəsidir. Belə ki, mətbuat səhifələrində və televiziya ekranlarında ailə daxilindəki problemlər hədsiz qabardılaraq ailə dəyərlərimizi kölgədə qoyur. Azərbaycan ailəsində qədimdən bu yana zorakılıq, saygısızlıq olmayıb. Böyüyə hörmət prinsipi daim öndə olub. Qarşılıqlı hörmət, atanın ata, ananın ana yeri olub. Televiziya ekranlarında isə daha çox problemli ailələr gündəmdə olurlar: "Azərbaycanın ailə dəyərlərinə uyğun olmayan, qalmaqallı, xoşagəlməz vəziyyətdə olan ailələr daha çox diqqət mərkəzində olur. Axı bu deyil Azərbaycan ailəsi. Təbii ki, cəmiyyətimizdə də, elə dünyanın hər yerində hər cür ailə var. Kimsə zorakılıq edirsə, evindəki ağbirçəyinə, ağsaqqalına hörmətsizlik edirsə, bunları bu qədər qabartmaq nəyə gərəkdir?! Belə ailələri ekranlara gətirməklə nə edirik? Axı bu, mübarizə, tərbiyə üsulu deyil... Biz bunula sanki belə ailələri təbliğ edirik".



Statiska göstərir ki, ailə daxilindəki zorakılıqlar zamanı şiddətə məruz qalanlar daha çox qadın və uşaqlar olurlar. Belə halları nümayiş etdirməkdənsə, düzgün mübarizə formaları seçilməlidir. Bunun üçün birgə mübarizəyə başlanmalıdır. Belə hallar cəmiyyətə, gənclərə sanki nümunə olaraq göstərilir. Gənclərin ailənin nə demək olduğunu bilmələri baxımından, əzilmiş insanları dəfələrlə nümayiş etdirmək əvəzinə, güclü, sədaqətli ailələri önə çəkmək lazımdır. Bölgələrdə illərlə mehriban, xoşbəxt yaşayan ailələr az deyil. Belə ailə modelini gənclərə təqdim etmək lazımdır. Televiziya tamaşaçısı məhz bu cür verilişlərə baxmalıdır. 50-60 il bir yerdə ömür sürən ailələr nümunə olaraq tanıdılmalıdır. Ailə dəyərlərinə hörmət etməyənlərə qarşı ictimai qınaq artmalıdır. Buna xüsusi ehtiyac var. Problemli ailələrlə ağsaqqallar söhbət etməlidir. Ziyalılar o ailələrə dəstək olmalıdır. Ailə daxilində rahatlığa, barışa nail olunmalıdır. Gərginliyi aradan qaldırmağa yardımçı olan vasitələr seçilməlidir. "Yalnız çıxışlarla, şüarçılıqla iş bitmir. "Ailə dəyərlərimizi qoruyaq" deməklə qorumaq olmur. Nümunəvi ailələri görən gənc ailədə atanın nüfuzunun nə demək olduğunu özü dərk edəcək". Q.Paşayeva xalqımızın daha bir müsbət xüsusiyyəti barədə onu da bildirdi ki, bizim ölkədə insanların bir-biri ilə xoş münasibətdə, ünsiyyətdə olması da mühüm şərtdir. Siyasi, iqtisadi cəhətdən vəziyyəti normal olan bəzi ölkə xalqları arasında intiharların artması halları baş verir. Mütəxəssislər bu halları onunla izah edirlər ki, həmin ölkələrdə ailələr daxilində insanların, ailə üzvlərinin bir-birinə qarşı soyuq münasibətləri var və bu soyuqluq getdikcə artır. Ailə üzvləri hətta birlikdə nahar etmirlər. Bunun isə ailə üçün böyük əhəmiyyəti var. Hər kəs öz işi ilə məşğuldur. Bizdə isə qohum-əqrəba problemi olan insana dəstək olur.

### QURULAN AİLƏNİN ÖZÜLÜ SAĞLAM OLMALIDIR

**Demokratik Cəmiyyət və Qadın Hüquqlarının Müdafiəsi İctimai Birliyinin sədri Mehriban Abdullayeva** ailə daxilində baş verən ziddiyyətlərin əsasını ailə başçısının səhlənkarlığı, bəzi insanların ailə qurmağa hazır olmaması, kortəbii şəkildə evlənməsi ilə əlaqələndirdi. Belə ki, Birliyə ünvanlanan müraciətlərin əksəriyyəti erkən nikaha daxil olanlar tərəfindən edilir: "Misal üçün, Rusiyadan gəlmiş maddi imkanı normal olan birisinə qız verən valideynlər qızı ilə həmin kişinin aralarındakı yaş fərqinin bəzən 15-20 il təşkil etməsini belə nəzərə almırlar. Bir müddətdən sonra isə bunun acısını çəkirlər". Sonrakı hadisələr isə bir qızın uğursuz taleyinin davamı olur. Əri tərəfindən atılmış bu cür qadını çox vaxt valideynləri də qəbul etmir. Üstəlik, bir körpə də atasız qalır. Belə bir ailədən isə cəmiyyətə ən yaxşı halda yalnız çörək pulu axtaran bir fərd ötürülür. M.Abdullayeva qızların mütləq təhsil almalarının vacibliyini qeyd etdi. Çünki savadsız, işsiz qalan qadınların sonrakı taleyi acınacaqlı olur. "Belələri insan alveri qurbanı olaraq potensial risk qrupuna aid olanlardır. Onlar insan alveri ilə məşğul olanların gözündən yayınmırlar. Peşəkarlar onları dərhal tanıyır, bu qadının bir parça çörək üçün küçəyə çıxdığını görür. Həmin qadının özü də, uşağı da artıq hədəfdir. Həmin uşaqlar dilənçiliyə də sövq edilir. İşçi qüvvəsi baxımından da ələ keçirilir".

M.Abdullayeva bölgələrdən işləmək məqsədilə paytaxta üz tutan yeniyetmə oğlan və qızların da valideynlərini diqqətli olmağa çağırdı: "Bu gənclərin konkret iş yerləri və yaşayış yerləri olmur. Kimə müraciət edəcəklərini bilmirlər". İctimai Birliyin sədri bunun üçün ölkənin demək olar ki, bütün regionlarında görüşlər keçirildiyini, insanları maarifləndirməyə ehtiyac olduğunu bildirdi: "Valideynlər övladlarının dostlarını, rəfiqələrini tanımalıdırlar".

Əlbəttə, uşağı dünyaya gətirməklə iş bitmir. Daha məsuliyyətli iş onu düzgün tərbiyə edib xoşbəxt, sağlam böyütmək, təhsil verməkdir. Cəmiyyətdə artan neqativ halların əksəriyyəti insanların bir-birinə laqeydliyi üzündən baş verir. Çox zaman ailə-övlad münasibətləri düzgün qurulmur. Bundan başqa, bəzən boşanmalar çox xırda məsələlər üzündən baş verir. Ailələrin dağılması isə həm onların özləri üçün, həm də gələcəkdə cəmiyyət üçün problemə çevrilir. Bəzi hallarda qadınlar öz hüquqlarını bilmirlər.

M.Abdullayeva valideynlərindən küsərək evdən çıxıb gedən yeniyetmələrin sonrakı aqibəti haqda da fikrini bildirdi. Xüsusən bölgələrdə baş verən bu uğursuz qaçışlar sonradan həlli çətin olan problemlər yaradır: "Valideynlər diqqətli olmalıdır. İnternetlə təmasda olan hər bir yeniyetmə valideyni tərəfindən nəzarətə götürülməlidir". Həmsöhbətimiz çıxış yolunu ailə daxilindəki münasibətlərin düzgün tənzimlənməsində görür: "Övladı "yükləmək" lazımdır. Onun boş vaxtı olmamalıdır. Vaxt bölgüsünü elə nizamlamaq lazımdır ki, uşaq boş vaxt tapmasın. Dərslə, idmanla, dərnəklərlə və s." M.Abdullayevanın sözlərinə görə, evdən qaçan uşaqların əksəriyyəti bekarçılıqdan nə edəcəklərini bilməyənlərdir. Bundan başqa, uşaq valideynini yanında görmür. Bu zaman hesab edir ki, onunla maraqlanan yoxdur və nə istəsə edə bilər. Xüsusən qız analarıı qızlarına təhsillə bərabər ev işlərini, bişdüşü də aşılamalıdır. Elə ailələr var ki, orada qızların süfrə açmaq mədəniyyəti olmur: "Axı qız niyə başını götürüb evdən qaçmalıdır?! Uşaqların güvən yeri öz ailələri olmalıdır". Xüsusilə övladlarının yeniyetməlik dövrü valideynləri ciddi narahat etməlidir.

Sonda onu qeyd etmək istərdim ki, ailədaxili münasibətlərin möhkəmləndirilməsi üçün heç bir qanun, heç bir ictimai və ya inzibati qurum insanların daim başı üzərində dayanmır. Hər kəs - istər valideyn, istər təlim-tərbiyə müəssisələrinin əməkdaşları öz üzərlərinə düşən məsuliyyəti vaxtında dərk edib işlərini düzgün qurmalıdırlar. Əks halda itirilən yalnız adət-ənənələr, milli-mənəvi dəyərlər olmur, biz doğmalarımızı da mənən itirib əvəzində özümüzə yad olan ünsürlər formalaşdırırıq. Sonralar zamanın üzüdönüklüyündən, cəmiyyətin təhlükəli olmasından şikayətlənmək gec olur. Çünki hər birimiz cəmiyyət adlı evin divar daşıyıq. Hər bir ailə isə cəmiyyətin kiçik modelidir.

**Zeynəb Əliqızı**

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibəti ilə keçirdiyi müsabiqəyə təqdim etmək üçün hazırlanıb.**